Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

# Qərbi Azərbaycan məsələsi beynəlxalq sənədlərdə insan haqları kimi qəbul olundu...

**Hazırda Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların kütləvi deportasiyası XX əsrin dəhşətli hadisələrindən biri olaraq tarixə düşüb. Sonuncu dəfə soydaşlarımız öz ata-baba yurdlarından 1988-ci ildə zorla qovulublar, deportasiya ediliblər, etnik təmizləməyə məruz qalıblar, öz tarixi torpaqlarında yaşamaq hüququndan məhrum olublar.**



40 ilə yaxındır Qərbi azərbaycanlılar indiki Ermənistan ərazisinə, öz doğma yurdlarına qayıtmaq uğrunda mübarizə aparırlar.

Çox təəssüflər olsun ki, azərbaycanlılar öz yurdlarından qovulduqdan sonra dünya birliyi, beynəlxalq qurumlar, dünya dövlətləri bu prosesə biganə qaldılar, Ermənistanın deportasiya cinayətlərinə göz yumdular. Soydaşlarımız isə geri qayıtmaq uğrunda mübarizələrini dayandırmadılar və bu gün də o yolda davam edirlər. Onu da təəssüflə qeyd edək ki, Ermənistan hakimiyyəti azərbaycanlıların əsrlər boyu o torpaqlarda yaşadıqlarını, eləcə də erməni şovinstləri tərəfindən deportasiyaya, etnik təmizləməyə məruz qaldıqlarını inkar edir, bütün vasitələrdən istifadə edərək onların geri qayıdış hüquqlarını təmin etmək istəmirlər. Hətta Ermənistan tərəfi elə bəyanatlar verir ki, guya heç orda azərbaycanlılar yerli-dibli yaşamayıblarmış. Doğrudan da, acı təəssüf doğuran bir haldır.

Azərbaycan 44 günlük müharibədə qələbə qazandıqdan, lokal antiterror tədbirlərindən sonra öz ərazi bütövlüyünü, torpaqları üzərində suverenliyini tam olaraq bərpa etdi. Bütün bu prosesdən sonra haqlı olaraq Qərbi azərbaycanlılarının öz torpaqlarına qayıdış hüququnun təmin edilməsi məsələsi qaldırıldı. Bu gün azərbaycanlıların indiki Ermənistan ərazisinə qayıtması, təhlükəsiz şəkildə öz evlərində yaşaması ən aktual məsələlərdən biridir. Yeri gəlmişkən, Qərbi Azərbaycan İcması dəfələrlə Nikol Paşinyan hökumətinə müraciət edərək soydaşlarımızın geri qayıdışının təmin edilməsi məsələsini qaldırıb, eyni zamanda Ermənistan hakimiyyətini dialoqa çağırıb. Təəssüf ki, hələ bu təşkilatın müraciətinə lazımı cavab verilməyib.

Qərbi Azərbaycan İcmasının bu gün təkcə ölkə daxilində deyil, beynəlxalq müstəvidə də bu məsələni aktuallaşdırdığı məlumdur. Azərbaycan dövlətinin, əlaqədar qurumların, Milli Məclisin bu istiqamətdə davamlı işlər gördüyünü də hər kəs bilir.

Bu gün Qərbi azərbaycanlıların qayıdış hüquqlarına beynəlxalq platformalarda böyük dəstək var və dünyanın bir çox yerində artıq bu məsələ müzakirə predmetinə çevrilib.

**Qərbi azərbaycanlıların qayıdış hüququnu tanıyan İstanbul bəyannaməsi...**

Qərbi azərbaycanlıların geri qayıdış hüququnu tanıyan və bu prosesə beynəlxaql dəstəyin ifadəsi olan iki mühüm tədbiri qeyd etməliyik. Bunlardan biri bu il iyunun 21-22-də İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasıdır. Digəri isə 3-4 iyulda Xankəndidə keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün yekununda qəbul edilən Xankəndi Kommunükesidir.

İstanbulda keçirilən sesseyada ilk dəfə olaraq Qərbi Azərbaycan İcması ilə bağlı qətnamə qəbul olunub. Sessiyada Qərbi Azərbaycan İcması ilə bağlı qətnamənin qəbul edilməsi xüsusilə əlamətdar hadisədir. İƏT çərçivəsində ilk dəfə olaraq qəbul olunan "Hazırkı Ermənistan ərazilərindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ" adlı qətnamədə təşkilata üzv ölkələrin Qərbi Azərbaycan İcmasının öz yurdlarına ləyaqətli qayıdış hüququna dəstəyi ifadə olunub, habelə Ermənistan tərəfindən sözügedən İcmanın hüquqlarının inkar olunması qınanılıb. Sənəddə, indiki Ermənistan ərazilərindən zorla qovulmuş azərbaycanlıların geri qayıdış hüququnun mövcudluğu təsdiqlənib və Ermənistan tərəfinin Qərbi Azərbaycan İcması ilə dialoqu rədd etməsi qınanılıb.

**Qərbi Azərbaycana qayıdış Xankəndi Kommunikesində...**

Azərbaycanın Xankəndi şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) 17-ci Zirvə görüşünün sonunda qəbul edilən Xankəndi Kommunikesində bir sıra məsələlərlə yanaşı sənəddə Ermənistandan qovulmuş azərbaycanlıların öz doğma yurdlarına ləyaqətli qayıdış hüququ bir daha təsdiqlənib. Məlumdur ki, Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev Qərbi azərbaycanlıların qayıdışı məsələsini qaldırıb və bu məsələ sammitin yekunlarına dair Xankəndi Kommunükesində əks etdirilib.

Ekspertlərə görə, belə bir formatda Qərbi Azərbaycan məsələsinin qaldırılması Qərbi azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına beynəlxalq dəstəyin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bu məsələyə Qərbi Azərbaycan İcmasının (QAİ) bəyanatında da toxunulub. QAİ bəyanatında Qərbi Azərbaycan İcması qayıdış məsələsini prinsipial və ardıcıl şəkildə beynəlxalq gündəliyə gətirməsinə və bu məsələyə beynəlxalq aləmin birmənalı dəstəyini təmin etməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür edib.

Qərbi azərbaycanlıların qayıdış hüququnun tanınması artıq beynəlxalq müstəvidə dəstək qazanır.

Siyasi şərhçi İlyas Hüseynov mətbuata bildirib ki, Prezident İlham Əliyevin Xankəndidə Qərbi Azərbaycanla bağlı səsləndirdiyi fikirlər Azərbaycanın siyasi gündəliyini əks etdirir: "İndiki Ermənistan ərazisindən zorla qovulmuş şəxslərin hüquqlarının bərpası, onların təhlükəsiz və ləyaqətli şəkildə Qərbi Azərbaycana qayıdışının təmin olunması əsas prioritetlərimiz sırasındadır. Ölkə rəhbəri bu məsələdə rəsmi Bakının mövqeyini mühüm beynəlxalq tribunadan, proqram xarakterli nitqində ifadə etmişdir. Eyni zamanda, İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə keçirilən Zirvə görüşündən sonra qəbul edilən kommunikedə də Qərbi Azərbaycanla bağlı fikirlərin yer alması rəsmi Bakının növbəti beynəlxalq uğurudur. Çünki İƏT-ə üzv ölkələr yalnız iqtisadi deyil, eyni zamanda siyasi və geosiyasi baxımdan da bir-biri ilə sıx bağlıdır. Bu baxımdan, Qərbi Azərbaycan məsələsinin belə bir platformada əks olunması onun beynəlxalq gündəmdə yenidən aktuallaşmasına mühüm töhfə verir".

Qərbi azərbaycanlıların təhlükəsiz şəkildə, beynəlxalq təminat altında geri qayıdışları üçün artıq beynəlxalq zəmin hazırlanıb və hesab edirik ki, bu proses yaxın gələcəkdə həyata keçiriləcək, soydaşlarımızın Vətən həsrəti bitəcək, bununla da onların geri qayıdış hüququ bərpa olunacaq...

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**